**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**

Əlyazması hüququnda

**ŞƏFİQƏ ŞİRALI qızı TAHİROVA**

# ŞAGİRDLƏRDƏ HALALLIQ TƏRBİYƏSİ FORMALAŞDIRILMASININ İMKAN VƏ YOLLARI

5804.01 – Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi

Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2018**

Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin İbtidai təhsilin pedaqogikası və metodikası kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Fərahim Balakişi oğlu Sadıqov**
*pedaqogika üzrə elmlər doktoru, professor*

**Rəsmi opponentlər:** **Mübariz Mirəziz oğlu Əmirov**
*pedaqogika üzrə elmlər doktoru, professor*

**Yadigar Babakişi oğlu Səmədov**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

**Aparıcı təşkilat:** Sumqayıt Dövlət Universitetinin Pedaqogika və psixologiya kafedrası

Müdafiə "6" fevral 2018-ci il tarixdə saat $14^{00}$ -da Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdindəki FD.02.061 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Az 1000, Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 68, ADPU, əsas bina, kiçik akt zalı

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kitabxana -İnformasiya Mərkəzində tanış olmaq olar.

Avtoreferat "___" _________ 2017-ci il tarixdə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi:** **dosent R.Z.Hümbətəliyev**

## TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqatın aktuallığı.** Müasir dövrdə ümumtəhsil məktəblərinin qarşısında duran ən vacib məsələlərdən biri də hərtərəfli və ahəngdar inkişaf etmiş, yüksək mənəvi zənginliyə, əxlaqi saflığa, dönməz əqidəyə malik olan, ailəsini, torpağını, yurdunu, xalqını, el-obasını sevən, soykökünə bağlı olan halal vətəndaşlar tərbiyə etməkdən ibarətdir. Bu məsələnin müvəffəqiyyətli həllinə məktəblilərə məqsədyönlü, planlı və mütəşəkkil şəkildə mütəmadi olaraq halallıq hisslərinin aşılanması ilə mümkündür. Məsələnin vacibliyi "Qurani-Kərim" də, o cümlədən "Əl-Bəqərə" (inək), "Əl-Maidə" (süfrə), "Ən-Nisa" (qadınlar), "Yunis", "Əl-Möminin" kimi surələrdə, vurğulanır ki, cəmiyyətin formalaşması onun hər bir üzvünə halallıq elementlərinin aşılanması ilə mümkündür. Dünya müsəlmanlarının əvəzsiz kitabı olan "Qurani-Kərim"də, Azərbaycan şifahi xalq ədəbiyyatı nümunələrində, xüsusilə "Avesta" və "Kitabi-Dədə Qorqud" dastanlarında halallıq ən zəruri mənəvi keyfiyyət kimi təqdim olunur.

Azərbaycan xalqının böyük öndəri, ümummilli liderimiz Heydər Əliyev məruzə və çıxışlarında, müsahibələrində, əməkçi insanların, halal çörək qazananların zəhmətini yüksək dəyərləndirmiş, birgəyaşayış qaydalarında halallığın adamların məişətinə daxil olmasını daim tövsiyə etmişdir. Ulu öndər çıxışlarınının birində qeyd edir: "İnsan halal qazanc əldə etməlidir, haram qazanc heç vaxt xeyir verə bilməz. Hər şeydə halalıq olmalıdır". Digər bir deyimində isə Heydər Əliyev halallığa yüksək dəyər verərək deyir: "Dünyada hər şey halallıq istəyir, təmizlik, düzlük istəyir".

Ulu Öndərin fikrincə, həqiqi mənəviyyatı milyonlara, milyardlara da almaq mümkün deyildir. Amma milyonları, milyardları olan adamlar cəmiyyətdə mənəviyyatsız, heç bir şeydirlər. Ulu Öndər həmçinin hesab edirdi ki, mənəviyyat olmayan yerdə heç bir şey ola bilməz.

Böyük öndər mənəviyyatca zəngin olanları halal adamlar kimi dəyərləndirərək insanı ucaldan, onu zənginləşdirən mənəviyyat komponentlərinə milli Azərbaycan vətənpərvərliyini, milli ləyaqəti, hərbi vətənpərvərliyi, milli dəyanət və vicdanı, düşmənə nifrəti, xalqımızın adət-ənənələrini, ana dilini dərindən bilməyi, milli və ümumbəşəri, mənəvi dəyərlərin vəhdətinin təmin edilməsini, böyüyə hörməti düzlük və doğurçuluğu daxil edirdi.

Korrupsiya və rüşvərxorluğa qarşı mübarizə ölkə başçısının daim diqqət mərkəzində saxladığı vacib məsələlərdən biridir. Dövlətimizin başçısı prezidentlik fəaliyyətinin ilk illərindən bu məsələnin uğurlu həlli

istiqamətində güclü siyasi iradə nümayiş etdirmişdir. Bununla əlaqədar 2003-cü ildən başlayaraq korrupsiyaya qarşı mübarizə məqsədi ilə müəyyən qanunlar qəbul edilmiş, beynəlxalq sənədlər ratifikasiya olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2004-cü il yanvar ayının 13-də "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununu təsdiq etmişdir.

"Azərbaycan Respublikasının Təhsil haqqında Qanunu"nda (2009) yetişən nəslin əxlaqı-mənəvi keyfiyyətlərinin formalaşdırılması üçün onlara təqdim edilən tərbiyə komponentləri içərisində halallığın aşılanması, onun nəzəri və praktik mahiyyətinin hərtərəfli aydınlaşdırılması tövsiyə olunur. Bu, onu göstərir ki, hər bir insanın mənəvi cəhətdən saflaşması üçün ən vacib stimul rolunu oynayan halallıq təbiyəsinin geniş şəkildə təbliğinə zəruri ehtiyac duyulur.

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda şəxsiyyətyönümlü təhsilin, təlimin, tərbiyənin düzgün müəyyənləşdirilməsi və təlim-tərbiyə müəssisələrində nəticəyönümlü, şəffaf idarəetmənin təmin olunması tövsiyə edilir. Hansı ki, bu tövsiyələrin fonunda yetişən nəslin nümayəndələrinə həm də halallıq tərbiyəsinin ən zəruri elementlərinin aşılanması ideyası da dayanır.

Hazırda Azərbaycan Respublikası suveren, hüquqi və demokratik dövlət kimi dünyanın inkişaf etmiş ölkələri sırasında əzmlə addımlayır. Bu gün dünya dövlətləri içərisində Azərbaycanın özünəməxsus xüsusi yeri və çəkisi vardır. Çünki o, yeni-yeni nailiyyətlərə doğru istiqamət almışdır. Ona görə də bu gün təlim-tərbiyə sahəsində böyük nailiyyətlər qazanmaq üçün xalqını sevən, onun suverenliyini, azadlığını, istiqlaliyyətini, ərazi bütövlüyünü qorumağı bacaran, mərd, əqidəli, mübariz, alovlu vətənpərvər halal övladlar lazımdır.

Qeyd etməliyik ki, bu gün kiçik kollektivlərdən tutmuş iri dövlət müəssisələrinə kimi hər yerdə halal adamlar vardır. Onlar vicdanla işləyir, öz zəhmətləri hesabına yaşayır, xalqımızın firavanlığı naminə əmək xariqələri göstərirlər. Beləlləri ədalətin təntənəsi naminə çıxış edir, haqsızlığa qarşı barışmaz mübarizə aparırlar. Lakin, bunlarla yanaşı, aramızda zəhmətdən qaçan, başqasının əməyilə dolanan, az işləyib çox yeyən müftəxor və haramzadalar da vardır. Beləlləri unudurlar: "Haramını həlal edən kəs Qurana iman gətirməyib".

Bu gün soykökümüzdən zaman-zaman süzülüb gələn halallığın məişətimizə daha dərindən nüfuz etməsinə zəruri ehtiyac duyulur. Milli əxlaq və milli mənəvi normalarımızın bünövrəsi və möhtəşəm kökü hesab

olunan halallığın mahiyyətini dərk etməyən bəzi soydaşlarımız halal həyat tərzi keçirməyə az əhəmiyyət verir.

Əsrlər boyu insanlar arasında doğma ünsiyyətin, saf əxlaqi münasibətlərin yaradılmasına xidmət edən halallıq bir kateqoriya kimi daim mövcud olmuşdur. "Halal adam", "halal süd əmmiş", "sənə halal olsun" və s. bu kimi ifadələr insanları biri-birindən fərqləndirən əsl meyar rolunu oynamışdır.

Təcrübə göstərir ki, bu gün halallıq tərbiyəsi ilə bağlı istər ailələrdə, istər orta ümumtəhsil məktəblərində aparılan işlərin səviyyəsi heç də qaneedici deyildir. Tədqiqat planına uyğun olaraq ailələrdə apardığımız müşahidələrə əsaslanıb deyə bilərik ki, bir çox valideynlərin halallıq tərbiyəsi ilə bağlı verdikləri məsləhətlər çox primitiv xarakter daşıyır.

Bir sıra ümumtəhsil məktəblərində apardığımız müşahidələr isə göstərir ki, günün ən vacib məsələsinə münasibət müsbət deyildir. Müəllimlərimizin əksəriyyəti bütün diqqəti təlim prosesinə yönəldərək, təlimin tərbiyəedici xarakterini arxa plana çəkir və ya tamamilə unudur. Bəzi məktəb rəhbərlərinin iş planında tərbiyə məsələləri yenə də köhnə steriotiplərə əsaslanır. Onlar müəllim-şagird münasibətinə biganə qalmaqla yanaşı, dərsləri də təsadüfdən-təsadüfə dinləyir, dərslərin müzakirəsini ya keçirmir, ya da bu müzakirəyə formal yanaşırlar. Təcrübə göstərir ki, dinlənilmiş dərsların tərbiyəvi cəhəti əksər hallarda diqqət mərkəzindən kənarda qalır. Halbuki dinlənilən bütün dərslərin halallıq tərbiyəsi ilə bağlı olan cəhətləri geniş təlqin olunmalıdır. Təsadüfi deyil ki, yeni təhsil proqramlarında (kurikulumlarda) şagirdlərə biliklərin yeni məzmun kəsb edən təhsil standartları əsasında verilməsi tələb olunur. Çünki təhsil standartlarında hər bir fənnin, hər bir təlim materialının halallıq tərbiyəsi baxımından təhlilə cəlb olunması mühüm aktuallıq kəsb edir.

Fənn müəllimlərinin təlim materialları əsasında tərbiyə motivləri yaratmaları onların əsas vəzifələrindəndir. Çünki hazırkı fənn kurikulumlarının hər birində, xüsusilə humanitar fənlərin (ədəbiyyat və tarix fənləri) təhsil proqramlarında (kuriklumlarında) şagird üçün motiv yaradan keyfiyyətləri meydana çıxarmaq və reallaşdırmaq əsas vəzifə kimi qarşıya qoyulur.

Halallıq tərbiyəsi ilə bağlı araşdırılan ədəbiyyatda da məsələnin qoyuluşu qaneedici deyildir.

Görünür respublikamızda halallıq tərbiyəsi ilə bağlı fundamental tədqiqatların aparılmaması özünü göstərmiş və bu səbəbdən də problemlə bağlı ədəbiyyat kasadlığı yaranmışdır.

Respublikamızın görkəmli alimlərindən M.M.Mehdizadə, M.Ə.Muradxanov, N.M.Kazımov, Ə.Ş.Həşimov, Ə.Ə.Ağayev, H.M.Əhmədov, X.Q.Fətəliyev, Y.R.Talıbov, S.M.Quliyev, H.Ə.Əlizadə, V.C.Xəlilov, B.A.Əhmədov, F.A.Rüstəmov, F.B.Sadıqov, A.N.Abbasov, H.Ə.Əlizadə məsələ ilə bağlı müvafiq fikirlər söyləsələr də, halallıq tərbiyəsi adı altında demək olar ki, irimiqyaslı tədqiqatlar aparmamışlar. Bu alimlər içərisində X.Q.Fətəliyev məsələ ilə bağlı məqsədə daha yaxın olmuşdur. O, "Halallıq" adlı əsər çap etdirərək bu sahədə ilk addım atmışdır. Lakin, onun kitabında halallıq yalnız ictimai məzmun kəsb etməklə məhdudlaşır. Əsərdə halallığın pedaqoji mahiyyəti açılmır, onun tətbiqi sahələri göstərilmir. Halallıq tərbiyəsinin pedaqoji əsaslarını az da olsa, tədqiq etmiş digər pedaqoqlarımız isə bu vacib tərbiyə prosesini "halallıq" kimi deyil, "düzlük" anlayışının məzmun çalarlarından biri kimi təsvir etmişdir. Xalqımızın bir etnogenez kimi kökündə, qanında özünü göstərən bir irsi keyfiyyətini başqa məzmun çalarlarında ifadə etməyə ehtiyac varmı? Biz isə "halallıq" anlayışını məhz öz məzmun çalarında göstərmək üçün onun pedaqoji, elmi-nəzəri əsaslarını dərindən öyrənməyi özümüzün mənəvi borcu hesab etdik.

Halallıq tərbiyəsi bir çox mənəvi keyfiyyətlərin əsasını təşkil etdiyi üçün bu gün ümumtəhsil məktəblərimizdə onu həyata keçirmək üçün düzgün iş sistemi qurmaq çox faydalıdır. Pedaqoji prosesdə "halal nədir?, haram nədir?" suallarına cavab verrnək üçün şagirdlərə müasir pedoqoji innovasiyaların, interaktiv üsulların köməyi ilə istiqamət verməkdən ötrü onlara düzgün yanaşmağa zəruri ehtiyac duyulur. Eyni zamanda, ailələrdə də övladlarımızın halallıq ruhunda tərbiyə olunması da günün vacib məsələlərindəndir. Hansı ki, bu vacib məsələlər mühüm aktuallıq kəsb etdiyi üçün geniş tədqiq olunmalıdır.

Bütün bunları nəzərə alaraq şagirdlərdə halallıq tərbiyəsi formalaşdırmağın imkan və yollarını dərindən öyrənilməsinə, geniş şəkildə təhlil edilməsinə, ümumiləşdirilməsinə ehtiyac yarandı.

Bu gün zəhmət, əmək, alın təri məfhumlarını təhlil etməyə, halallığı öz mənəviyyatında, məslək və amallarında, inam və əqidələrində yaşadan örnək xarakterli insanların fəaliyyətini tədqiqat obyektinə çevirməyə borcluyuq. Bu isə halallıqla bağlı xalq hikmətlərinin, faydalı adətlərin, gərəkli ənənələrin pedaqoji prosesə gətirilməsi zərurətini meydana çıxarır. Bütün bunlar isə bizi şagirdlərdə halallıq tərbiyəsi formalaşdırmağın pedaqoji əsasları ilə bağlı daha geniş şəkildə tədqiqat aparmağa sövq etdi.

**Tədqiqatın obyekti**. Orta məktəbin yuxarı sinif şagirdlərinin halallıq

tərbiyəsi prosesidir.

**Tədqiqatın predmeti.** Təlim prosesində və dərsdənkənar tədbirlərdə məktəblilərin halallıq tərbiyəsinin təşkili yollarıdır.

**Tədqiqatın məqsədi.** Təlim prosesində, ailədə, dərsdənkənar tədbirlərdə yuxarı sinif şagirdlərinə halallıq tərbiyəsi aşılanmağın məzmununu öyrənmək, problemlərin nəzəri və metodik əsaslarını işləyib hazırılamaq, səmərəli forma, yollarını eksperiment vasitəsilə yoxlayıb, sonra isə tətbiq etməkdən ibarətdir.

Bu məqsədin həyata keçirilməsində aşağıdakı **vəzifələrin** həllini məqsədəmüvafiq hesab etmişik.

- halallıq anlayışının ictimai fəlsəfi-sosioloji məzmununu açmaq;
- halallıq anlayışının pedaqoji-psixoloji mahiyyətini aydınlaşdırmaq;
- problem baxımından elmi-pedaqoji və metodik ədəbiyyatda, ümumtəhsil məktəblərində mövcud vəziyyəti öyrənmək və təhlil etmək;
- problem baxımından təlim prosesi və dərsdənkənar tədbirlər zamanı yuxarı sinif şagirdlərində halallıq tərbiyəsi keyfiyyətlərinin tərbiyə edilməsinin səmərəli formalarını müəyyənləşdirmək.

Qarşıya qoyulmuş məqsəd və vəzifələrin həlli belə bir ***fərziyyə*** yürütməyə imkan verir ki:

- hər bir müəllim və məktəb rəhbəri təlimin tərbiyəedici imkan və vasitələrini daim diqqət mərkəzində saxlayarsa;
- ailə, məktəb və ictimaiyyətin əlbir fəaliyyəti normal surətdə tənzimlənərsə;
- təlim prosesində, dərsdənkənar tədbirlərdə hər bir müəllim və tərbiyəçi tərəfindən şagirdlərə əxlaqi-mənəvi keyfiyyətlərin aşılanması ardıcıl olaraq izlənilərsə;
- yaş, fərdi, cinsi və psixoloji xüsusiyyətlər nəzərə alınmaqla şagirdlərə düzgün yanaşılarsa, onların halallıq tərbiyəsi ilə bağlı lazımi bilik, bacarıq və vərdişlərlə silahlandırılmalarına nail olmaq olar.

**Tədqiqatın metodoloji əsasını** insanın inkişafına xidmət edən dialektik təlim, şəxsiyyətin yetişdirilməsində mühüm rol oynayan əxlaqi, mənəvi normalar təşkil edir.

Nəzərdə tutulmuş vəzifələrin həyata keçirilməsi üçün aşağıdakı tədqiqat **üsullarından** istifadə olunmuşdur.

1. *Nəzəri təhlil.* Tədqiq edilən məsələ ilə bağlı dövlətin bütün proqram və direktiv sənədləri nəzərdən keçirilmiş, elmi, etnopedaqoji, etnopsixoloji ədəbiyyat, yuxarı siniflərin proqram və dərslikləri mövzu

baxımından təhlil edilmiş, müvafiq müqayisələr aparılmış, müəyyən nəticələr çıxarılmış və səmərəli təkliflər irəli sürülmüşdür.

2. *Pedaqoji müşahidə.* Respublikamızın bir sıra şəhər və kənd məktəblərində 50 məktəbdə, 50 ailədə müşahidələr aparılmışdır. Müşahidə materialları elmi şəkildə ümumiləşdirilmişdir.

3. *Pedaqoji müsahibə.* Halallıq tərbiyəsi ilə bağlı məktəb direktorları, direktor müavinləri, sinif rəhbərləri, fənn müəllimləri, uşaq təşkilatları rəhbərləri, habelə valideynlərlə söhbətlər aparılmışdır. Söhbətlərin nəticələri müvafiq cədvəllərdə öz əksini tapmışdır.

4. *Anketləşdirmə.* Respublikanın bir sıra şəhər və rayonlarında, o cümlədən Bakı və Sumqayıt şəhərlərində, İsmayıllı, Qəbələ, Ağsu, Şamaxı, Ağdaş, Göyçay rayonlarında 500-ə yaxın şagird, 100-ə qədər valideynlə əvvəlcədən hazırlanmış suallar əsasında anket sorğuları aparılmış, alınan cavablar müvafiq cədvəllərdə öz əksini tapmışdır.

5. *Pedaqoji sənədlərin öyrənilməsi.* Halallıq tərbiyəsi ilə bağlı bütün məktəb sənədləri, o cümlədən təhsil şöbəsinin müdirlərinin, məktəb direktorları və müavinlərinin iş planlarının nümunələri nəzərdən keçirilmiş və öyrənilib ümumiləşdirilmişdir.

6. *Pedaqoji eksperiment.* Tədqiqatın fərziyyəsinin doğruluğu üç mərhələdən ibarət olan eksperimental iş vasitəsilə sübuta yetirilmişdir. **Müəyyənedici** mərhələdə halallıqla bağlı qüsurlar, faktlar, rəqəmlər müəyyənləşdirilmiş, **öyrədici** mərhələdə tərəfimizdən hazırlanmış metodik öyrədici materiallar eksperimental siniflərdə tətbiq edilmiş, **yoxlayıcı** mərhələdə isə kontrol siniflərə ümumi şəkildə nəzarət edilməklə eksperimental siniflərdə alınan nəticənin doğruluğu yoxlanılmışdır. Sonuncu mərhələdə isə kontrol siniflərlə eksperiment siniflərin nəticələri əks olunmuşdur.

Eksperimentə Bakı şəhərinin 1, 5, 18, 31, 132, 46, 125, 158, 106, 288 nömrəli məktəblərlə yanaşı, İsmayıllı, Şamaxı, Ağsu, Ağdaş, Qobustan və Abşeron rayonunun müəllim və şagirdləri cəlb edilmişlər.

**Tədqiqatın elmi yeniliyi** ondan ibarətdir ki, dissertasiyada humanitar fənlərin, eləcə də dərsdənkənar tədbirlərin imkanları aşkara çıxarılmaqla, onların daha səmərəli formalarının optimal variantları müəyyən edilmiş və orta məktəbin yuxarı sinif şagirdlərində halallıq tərbiyəsi üzrə işin təşkili yollarını özündə əks etdirən elmi sistem yaradılmışdır.

**Tədqiqatın nəzəri əhəmiyyəti** ondan ibarətdir ki, şagirdlərin halallıq tərbiyəsinə aid nəzəri baxışlar saf-çürük edilmiş, müstəqil, suveren Azərbaycan vətəndaşlarının halallıq keyfiyyətinin ideya səviyyələri müəyyənləşdirilmişdir.

**Tədqiqatın praktik əhəmiyyəti**. Halallıq tərbiyəsi ilə bağlı orta məktəbin yuxarı sinif şagirdləri, məktəb rəhbərləri, sinif rəhbərləri, ixtisas müəllimləri, habelə valideynlər üçün metodik tövsiyələr hazırlanmışdır. Həmin metodik tövsiyələrdən (bir qismi çap olunmuşdur) müəllimlər, magistrantlar, aspiratnlar, dissertantlar, doktorantlar, təkmilləşdirmə kurslarının müdavimləri və s. istifadə edə bilərlər.

**Tədqiqatın nəticələrinin aprobasiyası** aşağıdakı şəkildə həyata keçirilmişdir. Tədqiqat zamanı əldə edilən nəticələr haqqında müşahidə aparılan məktəblərin fənn metodbirləşmələrində və dövrü mətbuatda məlumat verilmişdir.

Mövzu üzrə 4 tezis, 14 elmi-metodik məqalə və bir kitab çap olunmuşdur.

Tədqiqatın nəticələri Bakı şəhərinin 1, 5, 18, 31, 132, 46, 125, 158, 106, 288 nömrəli, İsmayıllı rayonunun Mollaisaqlı, Hacıhətəmli, Qalagah, Kürdeldarbəyli kənd orta məktəblərində tətbiq edilmişdir.

**Tədqiqatın quruluşu**. Əsər girişdən, 2 fəsildən, 8 yarımfəsildən, nəticə və təkliflərdən, istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ÜMUMU SƏCİYYƏSİ

**Girişdə** tədqiqatın aktuallığı əsaslandırılmış, onun obyekti, predmeti, məqsədi, elmi fərziyyəsi, məqsədindən və elmi fərziyyəsindən doğan vəzifələri, metodoloji əsasları şərh olunur, eyni zamanda, istifadə olunmuş tədqiqatın əsas üsulları, elmi yenilikləri, nəzəri və praktik əhəmiyyəti, müdafiəyə çıxarılan müddəaları və ümumi nəticələri barədə lakonik şəkildə məlumatlar verilmişdir.

Dissertasiyanın birinci fəsli belə adlanır: **"Ümumtəhsil məktəblərində halallıq tərbiyəsi üzrə aparılan işlərin mahiyyəti, məzmunu, məqsəd və vəzifələri"**. Bu fəsil dörd yarımfəsildən ibarətdir. ***"Məktəbdə halallıq tərbiyəsi üzrə həyata keçirilən işlərin mahiyyəti və məzmunu"*** adlanan birinci yarımfəsildə halallıq tərbiyəsinin mahiyyəti aydınlaşdırılır, halallıq tərbiyəsi üzrə görülən işlərin məzmunu şərh olunur. Yarımfəsildə göstərilir ki, *halallıq tərbiyəsi* –yetişən nəslə əməksevərlik, işgüzarlıq, xeyirxahlıq, inam, ədalət, etibar, etiqad, nəciblik, düzlük, doğruçuluq, əqidə saflığı, vətənə, torpağa, xalqa məhəbbət kimi keyfiyyətləri düzgün aşılamaq, harama, israfçılığa, xəyanətə nifrət oyatmaq üçün onların müvafiq bilik, bacarıq, vərdişlər sisteminə yiyələndirilməsinə yönəldilən planlı və mütəşəkkil yanaşılması və təsir edilməsi prosesidir.

Halallıq tərbiyəsinin mahiyyətini özündə əks etdirən bu tərifin pedaqoji məntiqinə söykənərək biz dissertasiyanın planına uyğun olaraq mövzu ilə bağlı ədəbiyyatı təhlil etməyi, məktəb təcrübəsində problemin qoyuluşunu ümumiləşdirməyi, təlim prosesində, ailədə və dərsdənkənar tədbirlər prosesində halallıq tərbiyəsi üzrə aparılan işlərin imkan və yollarını da sistemə salmağı zəruri saydıq.

Yarımfəsil yekunlaşdırılaraq göstərilir ki, halallıq tərbiyəsi əməksevərliyi, işgüzarlığı, inamı, ədaləti, etibarı, etiqadı, nəcibliyi, düzlüyü, doğruçuluğu, əqidə saflığını, vətəndaşlıq borcunu özündə ehtiva edən harama, israfçılığa nifrət hissini aşılayan, şəxsiyyətin düzgün formalaşmasına xidmət edən ən ali əxlaqi norma və mənəvi keyfiyyətlərdən biridir.

***"Problemin elmi-pedaqoji ədəbiyyatda qoyuluşu"*** adlanan ikinci yarımfəsildə problemlə bağlı proqram materialları, proqram materialları əsasında tərtib olunan dərsliklər, dərs vəsaitləri, həmçinin dissertasiyalar, monoqrafiyalar, həm də elmi-bədii materiallar təhlilə cəlb olunmuşdur. Yarımfəsildə yuxarı siniflərdə tədris olunan ədəbiyyatdan proqram materiallarında özünü tapan, onlara uyğun hazırlanan dərsliklərdəki mətnlərin hallaıq tərbiyəsi baxımından imkanları öyrənilmişdir. Yarımfəsildə, həmçinin tarix fənninə dair proqram materiallarıda araşdırılaraq ümumiləşdirilmiş, həmin proqram materiallarına dair hazırlanaraq çap olunmuş, hazırda ümumtəhsil məktəblərimizin istifadəsində olan tarix dərsliklərindəki halallıq tərbiyəsi mözularına münasibət bildirilmişdir. Yarımfəsildə, eyni zamanda, halallıq tərbiyəsinə yaxın olan mövzular üzrə tədqiqat aparanların bəzilərinin dissertasiyaları, bəzilərin avtoreferatları təhlil olunaraq, oradakı halallıq tərbiyəsinə olan münasibətin məzmunu öyrənilmişdir. Yarımfəsil yekunlaşdırılaraq göstərilir ki, yarımfəsildə təhlil olunan ədəbiyyatlardan aydın olur ki, istər proqram materiallarında, istər dərsliklərdə, istər elmi-pedaqoji ədəbiyyatda, istərsə da islam dəyərlərini özündə əks etdirən mənbələrdə halallıq tərbiyəsinin elmi-pedaqoji məzmunu düzgün aydınlaşdırılmamış, ailədə, təlim prosesində, dərsdənkənar və məktəbdənkənar tədbirlərdə halallıq tərbiyəsi üzrə aparılan işlərin imkanları və yolları işıqlandırılmamışdır. Bütün bunları nəzərə alaraq biz tədqiqatımızı şagirdlərdə halallıq tərbiyəsi formalaşdırılmasının imkan və yolları probleminə həsr etməyi məqsədəmüvafiq saydıq.

Birinci fəslin üçüncü yarımfəslində problemlə bağlı məktəb təcrübəsindəki mövcud vəziyyətin təhlili öz əksini tapır. ***"Problemlə bağlı məktəb təcrübəsindəki mövcud vəziyyətin təhlili"*** adlanan yarımfəsildə həm şəhər, həm kənd məktəblərində şagirdlərin halallıq tərbiyəsinin

vəziyyəti aydınlaşdırılmışdır. Bunun üçün anket sorğuları hazırlanaraq müvafiq siniflərə verilmiş və cavablar cədvəllərdə öz əksini tapmışdır. Qeyd etmək lazımdır ki, yarımfəsildə aparılan sorğular dissertasiyada qoyulan elmi fərziyyənin doğruluğunu sübuta yetirməyə xidmət edən eksperimental işin müəyyənedici mərhələsini özündə əks etdirmişdir. Yarımfəsildə göstərilir ki, kənd məktəblərində halallıq tərbiyəsi ilə bağlı şagirdlərin bilik səviyyəsi çox aşağıdır və onlar bu sahədə heç bir bacarıq və vərdişlər qazanmamış, əldə etməmişlər. Araşdırma apardığımız şəhər məktəblərində də aparılan sorğuların vəziyyəti ürəkaçan deyildi. Aparılan anket sorğularının nəticələri kənd məktəblərində aparılan sorğuların nəticələrindən bir o qədər fərqlənmədi. Alınan nəticə aşağıdakı cədvəldəki kimi oldu. Yüksək səviyyədə cavab verənləri tam, orta səviyyədə cavab verənləri yarımçıq, aşağı səviyyədə cavab verənləri pis cavab verənlər kimi ifadə etmişik.

**Eksperimental işin müəyyənedici mərhələsinin nəticələri**

*Cədvəl 1.1..*

| Məktəblər | Siniflər | Şagirdlərin sayı | Şagirdlərin cavabları (faizlə) | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | Tam cavab verənlər (yüksək) | % | Yarım-çıq cavab verənlər (orta) % | % | Cavab verməy ənlər (aşağı) | % |
| Bakı şəh.106 nömrəli orta məktəbi | E | 24 | - | 0 | 4 | 166 | 20 | 83,4 |
| | K | 24 | - | 0 | 5 | 21 | 19 | 79 |
| Bakı şəh. 288 nömrəli orta məktəbi | E | 30 | - | 0 | 6 | 20 | 24 | 80 |
| | K | 30 | - | 0 | 7 | 233 | 23 | 76,7 |
| Bakı şəh. 158 nömrəli orta məktəbi | E | 25 | - | 0 | 5 | 20 | 20 | 80 |
| | K | 25 | - | 0 | 5 | 20 | 20 | 80 |
| Bakı şəh. 46 nömrəli orta məktəbi | E | 24 | - | 0 | 5 | 21 | 19 | 79 |
| | K | 24 | - | 0 | 5 | 21 | 19 | 79 |
| Bakı şəh. 31 nömrəli orta məktəbi | E | 25 | - | 0 | 6 | 24 | 19 | 76 |
| | K | 25 | - | 0 | 6 | 24 | 19 | 76 |
| Bakı şəh. 1 | E | 20 | | 0 | 6 | 30 | 14 | 70 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| nömrəli orta məktəbi | K | 20 | - | *0* | 6 | 30 | 14 | 70 |
| İsmayıllı rayonu Mollaisaqlı kənd orta məktəbi | E | 20 | - | 0 | 4 | 20 | 16 | 80 |
| | K | 20 | - | 0 | *4* | 20 | 16 | 80 |
| İsmayıllı rayonu Hacıhətəmli kənd orta məktəbi | E | 24 | - | 0 | 4 | 17 | 20 | 83 |
| | K | 24 | - | 0 | 4 | 17 | 20 | 83 |
| İsmayıllı rayonu Kürdeldarbəyli kənd orta məktəbi | E | 20 | - | 0 | 7 | 35 | 13 | 65 |
| | K | 20 | - | 0 | 7 | 35 | 13 | 65 |
| İsmayıllı rayonu Qalagah kənd orta məktəbi | E | 20 | - | 0 | 6 | 30 | 14 | 70 |
| | K | 20 | - | 0 | 8 | 40 | 12 | 60 |

Kənd və şəhər məktəblərindəki müəyyənedici ekspermentin nəticələrin cədvəldə müqayisəli şəkildə əks olunması bir daha onu sübut edir ki, ümumtəhsil məktəblərimizin hər iki qütbündəki vəziyyət eynidir.

Eksperimentin müəyyənedici mərhələsinin nəticələrini təhlil edərkən məlum oldu ki, göstərilən məktəblərin heç birində şagirdlər onlara verilən suallara tam cavab verə bilməmişlər.

Yarımfəslə yekun vurularkən qeyd olunur ki, problemin məktəb təcrübəsindəki qoyuluşunu öyrənmək məqsədi ilə toplanılan müşahidə faktlarına, tədqiqat metodlarının tətbiqindən əldə olunan nəticələrə istinad edərək, bu gün şagirdlərdə halallıq tərbiyəsi formalaşdırmağın imkan və yollarının üzə çıxarılmasına ciddi ehtiyac vardır.

Birinci fəslin sonuncu, dördüncü yarımfəslində halallıq tərbiyəsi üzrə aparılan işlərin pedaqoji-psixoloji əsaslarından bəhs olunur. “Halallıq tərbiyəsi üzrə aparılan işlərin pedaqoji-psixoloji əsasları” adlanan bu yarımfəsildə halallıq tərbiyəsi üzrə aparılan işlərin pedaqoji əsasları, o cümlədən müvafiq pedaqoji tələblərin verilməsi, tərbiyə prinsiplərinə istinad olunması, tərbiyə üsullarının tədbiq olunması, vacib sayılması öz əksini tapır. Yarımfəsildə, həmçinin halallıq tərbiyəsi ilə bağlı aparılan

işlərin psixoloji əsaslarının da müəyyənləşdirilməsi göstərilir. Bu baxımdan yarımfəsildə şagirdlərdə halallıq tərbiyəsi elementlərini aşkara çıxarmaq üçün onlara psixoloji cəhətdən yanaşmanın imkanları barədə məlumat verilir. Yarımfəsildə halallıq tərbiyəsinin aparılması zamanı yeniyetmələrin əhvalının, emosiyalarının, hisslərinin, o cümlədən əxlaqi hisslərinin öyrənilməsi də öz əksini tapmışdır. Yarımfəsil yekunlaşdırılarkən qeyd olunur ki, yuxarı sinif şagirdlərinin halallıq tərbiyəsi üzrə həyata keçrilən işlər zamanı bu işlərin həm pedaqoji, həm də psixoloji əsaslarının öyrənilməsi çox vacibdir. Çünki, halallıq tərbiyəsinin aşılanması işində müvafiq pedaqoji tələblərə əsaslanmaq, ümumpedaqoji prinsiplərə istinad etmək, ümumpedaqoji üsullardan yararlanmaq, eləcə də şagirdləri halallığa sövq edən ən ali hisslərlə silahlandırmaq, bu problemin həllinə müvəffəqiyyət qazandıran amillər hesab olunur.

Dissertasiyanın ikinci fəsli belə adlanır: **"Təlim-tərbiyə prosesində halallıq tərbiyəsi üzrə həyata keçirilən işlərin imkan və yolları".** İkinci fəslin ***"Təlim prosesində halallıq tərbiyəsi üzrə həyata keçirilən işlərin imkan və yolları"*** adlanan birinci yarımfəslində haqlı olaraq göstərilir ki, bütün təlim fənlərinin halallıq tərbiyəsinin təşkilinə kömək etmək imkanları böyükdür.

1.Ümumtəhsil məktəblərində şagirdlərə halallıq tərbiyəsi elementləri aşlamaq işində dəqiq elmlər, təbiət elmləri, ictimai elmlər və fənlərin imkanları genişdir. Bu elm və fənlər içərisində ictimai elmlər və fənlərin rolu daha böyükdür.

2. Humanitar fənlərin tədrisi zamanı halallıq tərbiyəsinin üzə çıxarılması ilə bağlı mövcud imkanlar daha çox Azərbaycan dili, ədəbiyyat və tarix fənlərinə məxsusdur.

Yarımfəsildə həmçinin göstərilir ki, həmin imkan və bir sıra səmərəli yollardan istifadə etməklə, şagirdlərin halallığa olan maraq və meyillərinin üzə çıxarılması, onların bu işə həvəsləndirilməsi çox vacibdir. Belə ki, təlim prosesində şagirdlərə halallıq tərbiyəsi aşılamağın imkanları çoxdur, lakin ən zəruri imkanlar da vardır. Həmçinin həmin zəruri imkanları aşığıdakı şəkildə sistemləşdirmək məqsədəuyğun sayılır:

1. Hər hansı bir mövzunun tədrisi zamanı şagirdlərdə halallığa olan maraq və meyillərin üzə çıxarılması;
2. Şagirdlərin halallığa həvəsləndirilməsi;
3. Təlimin tərbiyəedici xarakterinin müəyyənləşdirilməsi ilə bağlı iş aparan müəllimin halallıq tərbiyəsinə xüsusi yer ayırması;
4. Halallıq tərbiyəsi ilə bağlı verilən tapşırıqların yerinə

yetirilməsinin müəllimlər tərəfindən daim nəzarətdə saxlanılması.

Yarımfəsildə təlim fənlərinin yeniyetmə şagirdlərin halallıq tərbiyəsinə verdiyi töhfələrin imkanları da öz əksini tapır. Göstərilir ki, elə bir təlim fənni yoxdur ki, o şagirdlərə biliklə yanaşı, müəyyən əxlaqi bacarıq və vərdişlər, halallıq tərbiyəsi elementləri aşılamamış olsun. Bunu düzgün qiymətləndirməyən bəzi müəllim və tərbiyəçilər səhv olaraq düşünürlər ki, ancaq humanitar fənlər əxlaqa, halallıq tərbiyəsinə təsir göstərmək imkanına malikdir. Əslində məktəbdə bütün təlim fənləri uşaqları tərbiyələndirir.

Ancaq bu fənlər içərisində ən əsasları ədəbiyyat və tarix fənləridir. Məhz ona görə də, biz növbəti paraqrafda bu məsələni daha ətraflı şərh etməyi vacib saymışıq. Bunun üçün də ikinci fəslin növbəti ikinci yarımfəsli V-XI siniflərin ədəbiyyat dərslərində halallıq tərbiyəsi ilə əlaqədar həyata keçirilən işlərin imkan və səmərəli yolları müəyyənləşdirilərək təqdim olunur. "Ədəbiyyat dərslərində halallıq tərbiyəsi üzrə aparılan işlərin imkanları və səmərəli yolları" adlanan ikinci yarımfəsildə göstərilir ki, orta ümumtəhsil məktəblərində tədris olunan bütün fənlərin halallıq tərbiyəsini formalaşdırmaq imkanları vardır. Lakin, bunların içərisində ən ümdəsi ədəbiyyat fənnidir. V-XI siniflərdə ədəbiyyat fənninin tədrisi prosesində müxtəlif janrlardan olan ədəbi-bədii nümunələr, etnopedaqoji materiallar, şagirdlərdə halallıq hissləri aşılamaq baxımından mühüm əhəmiyyət kəsb edir. Ona görə də, ədəbiyyat müəllimləri belə nümunələri düzgün seçməyi və onları müvafiq mövzuların tədrisilə uyğunlaşdırmağı bacarmalıdırlar. Unutmaq olmaz ki, həmin nümunələrdə halallıq tərbiyəsinin bütün komponentləri öz əksini tapmışdır. Halallıq tərbiyəsinin mühüm komponentləri olan düzlük, doğruçuluq, saflıq, bütövlük, paklıq, qayğıkeşlik, insaflılıq, hörmət etmək, obyektivlik, təvazökarlıq, qənaətçillik, əliaçıqlıq, səxavətlilik, xeyirxahlıq, şükürlülük, ədalətlilik, işgüzarlıq, qədirqanlılıq, səmimiyyətlilik, əməksevərlik kimi müsbət əxlaqi normalar uşaqlara məhz ədəbiyyat fənlərindəki nümunələr vasitəsilə aşılanır. Bu nəcib keyfiyyətlər sinif otağı, məktəb partası vasitəsilə keçib, uşaqlarımızın şüur və əqidələrində dərin kök salır. Hər bir gənc təhsil prosesində nəcib əxlaqi anlayışlarla yanaşı, həmin anlayışlar haqqında dərin elmi biliklərə yiyələnmiş olurlar.

Yarımfəsildə təlim prosesi üçün zəruri olan halallıq tərbiyəsi nümunələrinin didaktik materiallar kimi hazırlanaraq şagirdlərə çatdırılması, eksperimentin öyrədici mərhələsi kimi təqdim olunur. Belə ki, bu mərhələdə hazırlanan öyrədici materiallar təlim prosesində şagirdlərə

çatdırıldıqdan sonra onlara necə aşılanmasının vəziyyətinin müəyyənləşdirilməsi göstərilir. Öyrədici materialların eskperimental siniflərdə tətbiqi, kontrol siniflərin nəzarətdə saxlanılması və iki istiqamət üzrə aparılan işilərin müqayisəli təhlili cədvəllərdə öz əksini tapır.

Yarımfəsildə qeyd olunur ki, dərs ilinin sonunda eksperimentin ən zəruri mərhələsində uşaqlarda halallıq tərbiyəsini hansı həcmdə aşılamağımız barədə həyata keçirdiyimiz eksperimentin nəticələri təhlil olunarkən məlum oldu ki, Mollaisaqlı kənd orta məktəbinin V sinif şagirdlərinin 82,5 faizi, Hacıhətəmli məktəbinin VI sinif şagirdlərinin 83 faizi, Kürdeldarbəyli kənd məktəbinin VIII sinif şagirdlərinin 85 faizi, Qalagah kənd məktəbinin X sinif şagirdlərinin 86,5 faizi, Basqal kənd orta məktəbinin XI sinif şagirdlərinin isə 87 faizi suallara düzgün cavab vermişlər. Yarımfəsildə şəhər məktəblərinin nəticələri də öz əksini tapmışdır. Belə ki, şəhər məktəblərinin V-IX sinif şagirdləri də suallara, əsasən, düzgün cavab vermişlər.

Bakı şəhərinin 20 nömrəli orta məktəbində Bəyim Kərimovanın həyata keçirdiyi eksperimental işin nəticələrini araşdırarkən məlum oldu ki, şagirdlərin əksəriyyəti sorğuya düzgün cavab vermişlər. Alınan cavablar gözlədiyimizdən də yaxşı olmuşdur.

25 şagirddən 21-i tam, 3 nəfəri yarımçıq, 2 nəfəri isə cavab verə bilmədi. Bu isə müsbət cavabın 97 faizi idi.

Alınan cavabların davamlı olmasını, effektliliyini bir daha isbata yetirmək məqsədi ilə həmin cavabları Bakı şəhərindəki 20 nömrəli məktəbin IX$^a$ kontrol sinfində eyni suallar əsasında keçirdiyimiz sorğunun nəticələri ilə müqayisə etdik. Nəticə 10-cu cədvəldəki kimi oldu.

**Eksperimentin öyrədici mərhələsində aparılan işlərin nəticələri**

Mollaisaqlı məktəbi üzrə

*Cədvəl 1.2.*

| Siniflər | Şagirdlərin sayı | Cavablar | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | Düzgün cavab verdi | % | Səhv cavab verdi | % | Cavab verə bilmədi | % |
| V$^a$ | 23 | 19 | 82,5 | 2 | 8,75 | 2 | 8,75 |
| V$^b$ | 25 | 20 | 80 | 3 | 12 | 2 | 8 |

Hacıhətəmli kənd orta məktəbi üzrə

| Siniflər | Şagirdlərin sayı | Cavablar | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | Düzgün cavab verdi | % | Səhv cavab verdi | % | Cavab verə bilmədi | % |
| $V^a$ | 24 | 19 | 79 | 1 | 4 | 4 | 17 |
| $V^b$ | 26 | 21 | 81 | 2 | 7,7 | 3 | 11,3 |

Kürdeldarbəyli kənd orta məktəbi üzrə

| Siniflər | Şagirdlərin sayı | Cavablar | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | Düzgün cavab verdi | % | Səhv cavab verdi | % | Cavab verə bilmədi | % |
| $V^a$ | 23 | 18 | 78,3 | 1 | 4,3 | 4 | 17,4 |
| $V^b$ | 22 | 17 | 77,3 | 2 | 9 | 3 | 13,7 |

Kürdeldarbəyli kənd orta məktəbi üzrə

| Siniflər | Şagirdlərin sayı | Cavablar | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | Düzgün cavab verdi | % | Səhv cavab verdi | % | Cavab verə bilmədi | % |
| $VI^a$ | 23 | 20 | 81,5 | 2 | 9 | 2 | 9 |
| $VI^b$ | 22 | 20 | 80,5 | 2 | 12 | 2 | 8 |

Kürdeldarbəyli kənd orta məktəbi üzrə

| Siniflər | Şagirdlərin sayı | Cavablar | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | Düzgün cavab verdi | % | Səhv cavab verdi | % | Cavab verə bilmədi | % |
| $VII^a$ | 22 | 17 | 77,5 | 2 | 4,5 | 4 | 17,5 |
| $VII^b$ | 22 | 17 | 77,5 | 1 | 9 | 3 | 14,7 |

Kürdeldarbəyli kənd orta məktəbi üzrə

| Siniflər | Şagirdlərin sayı | Cavablar | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | Düzgün cavab verdi | % | Səhv cavab verdi | % | Cavab verə bilmədi | % |
| $VIII^a$ | 22 | 18 | 75,5 | 4 | 20 | 1 | 5 |
| $VIII^b$ | 21 | 17 | 77,2 | 4 | 14 | 2 | 10 |

Qalagah kənd orta məktəbi üzrə

| Siniflər | Şagirdlərin sayı | Cavablar | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | Düzgün cavab verdi | % | Səhv cavab verdi | % | Cavab verə bilmədi | % |
| $IX^a$ | 21 | 16 | 76,2 | 4 | 19 | 1 | 4,8 |
| $IX^b$ | 22 | 17 | 77,3 | 3 | 13,6 | 2 | 9,1 |

Basqal kənd orta məktəbi üzrə

| Siniflər | Şagirdlərin sayı | Cavablar | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | Düzgün cavab verdi | % | Səhv cavab verdi | % | Cavab verə bilmədi | % |
| $IX^a$ | 21 | 16 | 76,2 | 3 | 14,3 | 2 | 9,5 |
| $IX^b$ | 19 | 15 | 79 | 1 | 5 | 3 | 16 |

20 nömrəli tam orta məktəbi üzrə

| Siniflər | Şagirdlərin sayı | Cavablar | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | Düzgün cavab verdi | % | Səhv cavab verdi | % | Cavab verə bilmədi | % |
| $IX^a$ (E) | 22 | 17 | 76 | 4 | 14 | 1 | 9 |
| $IX^b$ (K) | 20 | 16 | 77 | 2 | 5 | 3 | 16 |

**Eksperimentin öyrədici mərhələsində eksperimental qruplarda aparılan işlərin nəticələrinin kontrol qruplarla müqayisəsi**

*Cədvəl 2.1*

| Sıra | Suallar | Eksperimental qrup | | | | | | Kontrol qrup | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Şagirdlərin sayı – 26 | | | | | | Şagirdlərin sayı – 25 | | | | | |
| | | Tam cavab verdi | Faiz | Yarımçıq cavab verdi | Faiz | Cavab verə bilmədi | Faiz | Tam cavab verdi | Faiz | Yarımçıq cavab verdi | Faiz | Cavab verə bilmədi | Faiz |
| 1 | Halallığı necə başa düşürsünüz? | 21 | 80,8 | 3 | 11,5 | 2 | 7,7 | 4 | 16 | 5 | 20 | 16 | 64 |
| 2 | Halal qidalanmaq insana nə verir ? | 20 | 77 | 4 | 15,4 | 2 | 7,6 | 5 | 20 | 4 | 16 | 16 | 64 |
| 3 | Halal qazanmaq insana nə bəxş edir? | 19 | 73,1 | 5 | 19,2 | 2 | 7,7 | 3 | 12 | 6 | 24 | 16 | 64 |
| 4 | Halal yaşamağın sirri nədədir? | 22 | 84,6 | 3 | 11,5 | 1 | 3,9 | 6 | 24 | 3 | 12 | 16 | 64 |
| 5 | Halal yaşamaq üçün insan nələri bilməlidir? | 22 | 84,6 | 3 | 11,5 | 1 | 3,9 | 6 | 24 | 4 | 16 | 15 | 60 |
| 6 | Halal yaşamaq üçün insan nələri etməlidir? | 23 | 88 | 2 | 8 | 1 | 4 | 5 | 20 | 4 | 16 | 16 | 64 |
| 7 | Ailədən başlanan halallığın sonu necə olur? | 22 | 84,6 | 2 | 7,7 | 2 | 7,7 | 3 | 12 | 6 | 24 | 16 | 64 |

Yarımfəsildə deyilənlər ümumiləşdirilərək belə nəticə hasil olmuşdur ki, ədəbiyyat dərslərində hər hansı bir mövzunun tədrisi zamanı, həmin mövzunun halallıq tərbiyəsi ilə bilvasitə bağlı didaktik nümunələrlə əlaqələndirilərək şərh edilməsi, şağırdlərin əxlaqi cəhətdən saflaşdırılması, mənəvi cəhətdən zənginləşdirilməsi işini asanlaşdırır.

İkinci fəslin üçüncü yarımfəslində tarix dərslərində halallıq tərbiyəsi üzrə aparılan işlərin imkanları açıqlanır. ***"Tarix dərslərində halallıq tərbiyəsi üzrə aparılan işlərin imkanları"*** adlanan bu yarımfəsildə göstərilir ki, ədəbiyyat dərslərində istifadə olunan halallıq tərbiyəsi nümunələrinin tarix dərslərindəki nümunələrlə, tarixi faktlarla, konkret rəqəmlərlə əlaqələndirilməsinə zəruri ehtiyac olduğu kimi, tarix dərslərində də istifadə edilməsinə zəruri ehtiyac olan materialların ədəbi-bədii nümunələrlə əlaqələndirilməsinə ciddi ehtiyac duyulur. Ona görə də, orta ümumtəhsil məktəblərində tədris olunan tarix fənninin imkanlarından istifadə etməklə, şagirdlərin halallıq tərbiyəsini istənilən səviyyəyə qaldırıb inkişaf etdirmək mümkündür. Ölkəmizdə uğurla həyata keçrilən təhsil islahatlarının ən mühüm tərkib hissəsi olan kurikulum siyasəti əsasında həyata keçirilən ədəbiyyat dərslərində olduğu kimi, tarix dərslərində də şagirdlər şifahi xalq yaradıcılığı nümunələri, "Avesta", "Kitabi-Dədə Qorqud", "Koroğlu", "Qaçaq Nəbi" kimi abidələrlə, habelə Qətran Təbrizi, N.Gəncəvi, M.Füzuli, Arif Ərdəbilli, Əssar Təbrizi, İ.Nəsimi, Cahan şah Həqiqi, Şah İsmayıl Xətai, A.Bakıxanov, M.F.Axundov, H.B.Zərdabi, Ş.M.Xiyabani, Ü.Hacıbəyli, Ustad Şəhriyar kimi ədiblərimizin yaradıcılığı, həmçinin məmləkətimizin Azıx mağarası, Manna, Atropatena, Albaniya, Dəmirqapı Dərbənd, Şamaxı, Gəncə, Təbriz, Şəki, Şuşa, İrəvan, Bakı, Quba mədəniyyəti, qədim Sacilər, Salarilər, Rəvvadilər, Şəddadilər. Ağqoyunlular, Qaraqoyunlular, Səfəvilər, Şirvanşahlar kimi dövlətlərin inkişaf tarixilə yaxından tanış olurlar. Bu zaman onlar xalqımızın halal zəhmətlə kəndlər saldığının, şəhərlər yaratdığının, elm-mədəniyyət abidələri ucaltdığının şahidi olurlar. Onlar, eyni zamanda, halal torpaqlarımıza uzanan haram əllərin müəllifləri olan əhəmənilərə, monqollara, xilafətə, slavyanlara, faşistlərə, erməni işğalçılarına qarşı halal süd əmmiş Tomris, Babək, Cavanşir, Qara Yusif, Uzun Həsən, Şah Xətai, Şah Təhmasib, Məhəmməd Xudavəndə, Şah Abbas, Şah Səfi, Sultan Hüseyn, Səttarxan, Şeyx Məhəmməd Xiyabani, Qaçaq Kərəm, Həzi Aslanov, Mehdi Hüseynzadə, Mübariz İbrahimov, 20 Yanvar şəhidləri, Qarabağ uğrunda şəhid olan minlərlə qəhrəman oğlan və qızlarımız Azərbaycanın istiqlaliyyəti, bütövlüyü və tərəqqisi naminə canlarından

keçmişlər. Ona görə də tarix dərslərinin V-IX siniflər üçün hazırlanmış milli kurikulum əsasında didaktik materiallarda, o cümlədən dərsliklərdə, dərs vəsaitlərində, metodik göstərişlərdə, məqalələrdə mövcud olan halallıq tərbiyəsinin nümunələrindən istifadə etməklə şagirdlərdə ən vacib əxlaqi-mənəvi normaların inkişafı və formalaşdırılmasına zəruri ehtiyac vardır.

Yarımfəsildə həmçinin göstərilir ki, ulu öndərimiz Heydər Əliyevin müdrik siyasəti nəticəsində halallığın rəhni olan torpaq öz sahiblərinə qaytarılmışdır. Hazırda Azərbaycan zəhmətkeşlərinin həyətyanı sahəsi, fermer təsərrüfatı, sənaye obyektləri vardır. Azərbaycan əməkçiləri öz halal zəhməti sayəsində mal-qara yetişdirir, ticarət obyektləri vasitəsilə ərzaq bolluğu yaradır, yeni tikinti massivləri salır - bir sözlə, firavan həyat qurmağa çalışırlar. Bütün bu halallıq tərbiyəsi nümunələrini şagirdlərə - gələcəyin halallıq tərbiyəsi carçılarına çatdırılması bizim ən ümdə vəzifəmizdir. Tarix dərslərinin belə təşkili yuxarı sinif şagirdlərinin halallıq tərbiyəsi üçün təqdim olunan didaktik, öyrədici materiallar qabaqcıl məktəb təcrübəsi nümunələridir. Ona görə də biz qabaqcıl məktəb təcrübəsinə istinad edərək tarix dərslərində şagirdlərin halallıq tərbiyəsini formalaşdırmağa xidmət edən nümunələrdən, didaktik, öyrədici materiallardan səmərəli istifadə edilməsi təcrübəsini işıqlandırdıq. Yuxarıda adları qeyd olunan eksperimentator müəllimlərin tarix dərslərində şagirdlərin halallıq tərbiyəsinin inkişafı baxımından əhəmiyyətli və önəmli sayılan didaktik nümunələrin − informasiyaların, məlumatların verilməsini zəruri hesab etdik. Belə didaktik, öyrədici nümunələrin şagirdlərin halallıq tərbiyəsinin formalaşdırılması baxımından nə dərəcədə effektiv olmasını yoxlamaq məqsədi ilə eksperimental məktəblərin (5, 132, 288 nömrəli orta məktəblər nəzərdə tutulur - Ş.T.) həm eksperimental, həm də kontrol siniflərində (V-XI siniflərdə) aşağıdakı suallar əsasında sorğular təşkil etdik:

1. Halallıq tərbiyəsi ilə bağlı hansı tarixi faktları bilirsiniz?

2. Xalqı halal zəhmətlə firavan yaşamağa səsləyən dövlət xadimlərimizdən, sərkərdələrimizdən hansılarını tanıyırsınız?

3. Ölkəmizə uzanan "haram əllər" ifadəsini necə başa düşürsünüz?

4. Ölkəmizə uzanan "haram əllər"i kəsmək üçün şücaət göstərən qəhrəman oğullarımızdan kimləri tanıyırsınız?

5. "Halal süd əmmiş" qəhrəman övladlar deyəndə kimləri nəzərdə tutursunuz?

6. Halallıq tərbiyəsi üçün əsl nümunə olan Babəkin, Cavanşirin, Uzun Həsənin davamçıları olan Şah İsmayıl Xətaini, Şah Təhmasibi, I Şah Abbası, Şah Səfini necə səciyyələndirirsiniz?

7. Müstəqillik qazandığımız hazırkı dövrdə dövlət quruculuğumuzun keşiyində əzmlə dayanan halal insanlar deyəndə kimləri nəzərdə tutursunuz?

**Eksperimentin yoxlayıcı mərhələsində aparılan işlərin nəticələri**

*Cədvəl 2.2*

| № | Siniflər | Şagirdlərin sayı | Alınan cavabların məzmunu | | |
|---|---|---|---|---|---|
| | | | Düzgün cavab verdi | Səhv cavab verdi | Cavab verə bilmədi |
| Eksperimental | | 82 | 74 | 4 | 4 |
| 1 | V[a] | 22 | 20 | 1 | 1 |
| 2 | VII[a] | 21 | 19 | 1 | 1 |
| 3 | IX[a] | 20 | 18 | 1 | 1 |
| 4 | XI[a] | 19 | 17 | 1 | 1 |
| Kontrol | | 85 | 0 | 18 | 67 |
| 1 | V[b] | 23 | - | 3 | 20 |
| 2 | VII[b] | 22 | - | 4 | 18 |
| 3 | IX[b] | 20 | - | 4 | 16 |
| 4 | XI[b] | 20 | - | 4 | 16 |

Deyilənləri yekunlaşdıraraq belə bir qənaətə gəlmək mümkündür: tarix dərslərində elm, mədəniyyət, incəsənət və əməklə bağlı olan müvafiq mövzuların tədrisi zamanı dövlət rəhbərləri, sərkərdələr və qəhrəman igid övladlar barədə məlumatlar verərkən həmin məlumatların halallıq tərbiyəsi nümunələri ilə əlaqələndirərək şərh edilməsi, şagirdlərdə halala rəğbət, harama nifrət hisslərini gücləndirir. Bu da onlarda düzlük, doğruçuluq, saflıq, əməksevərlik, işgüzarlıq, əliaçıqlıq, qədirqanlılıq, qayğıkeşlik və s. bu kimi keyfiyyətlərin formalaşmasına kömək edir.

İkinci fəslin sonuncu yarımfəsli dərsdənkənar tədbirlərdə halallıq tərbiyəsi üzrə görülən işlərin modernləşdirilməsi yollarından bəhs edir. ***"Dərsdənkənar tədbirlərdə halallıq tərbiyəsi üzrə görülən işlərin modernləşdirilməsi yolları"*** adlanan bu yarımfəsildə göstərilir ki, ümumtəhsil məktəblərində təşkil olunan dərsdənkənar tədbirlərin hər birində məktəblilərin halallıq tərbiyəsini günün tələbləri səviyyəsində inkişaf etdirib formalaşdırmaq mümkündür. Lakin, bu tədbirlər içərisində disputlar və əxlaqi söhbətlər xüsusi yer tutur. Ona görə ki, həm disputların, həm də əxlaqi söhbətlərin bu baxımdan imkanları çox genişdir. Məktəbdə disputların təşkili şagirdlərin yaş, fərdi, psixoloji xüsusiyyət və qavrama qabiliyyətlərinə uyğun olan bir tərzdə hazırlandıqda və keçirildikdə daha

faydalı olur. Ona görə ki, disputlar şagirdləri çox cəlb edən və maraqlandıran tədbirlərdəndir.

«Disput» - «mübahisə», «müzakirə», «münaqişə» deməkdir. Disput fikirlərin müstəqil mübadiləsi deməkdir. Disputlar şagirdlərin daxili aləmini, mənəvi zənginliklərini üzə çıxartmaq üçün vacib tədbirlərdən sayılır.

Təlim prosesində şagirdlərdə formalaşan əxlaqi normalar dərsdən və məktəbdənkənar tədbirlərdə daha da dərinləşir, möhkəmlənir. Disputlar bilavasitə şagirdlərdə vacib əxlaqi dəyərlərin inkişafına xidmət edir. Yarımfəsildə o da göstərilir ki, disput zamanı şagirdlər həyatda baş verən başlıca hadisələrə fəal və yaradıcı münasibət bəsləyirlər. Müəyyən əxlaqi məsələ barədə şagirdlərdə rəy və fikir mübadiləsi yaranır. Elmi mübahisələr kollektiv üzvlərinin diqqətini müəyyən bir əxlaqi məsləyə yönəldərək onları birləşdirir. Hər hansı bir əxlaqi məsələ ətrafında müxtəlif zidd fikirlər və rəylər mövcud olduğundan disputda səhv və doğru fikirlər qarşılaşır.

Halal və haram anlayışlarını, yəni bir-birinə zidd olan bu keyfiyyətlərin geniş və mətnaltı mənaları mücərrəd olduğundan onların barəsində ciddi rəy mübadiləsinə və kəskin müzakirəyə ehtiyac duyulur. Belə mübahisə və müzakirələr bir-birinə zidd olan fikirləri quruplaşdırır və həmin anlayışlar barəsində məktəblilərdə tədricən dürüst təsəvvür və fikir aydınlığı yaranır.

Yarımfəsildə qeyd olunur ki, müşahidə edilən məktəblərdə «Əsl halal insan necə olmalıdır?», «Halallıqda kimə oxşamaq istərdin?», «Hansı halal adamları tanıyırsan?», «Halal insanlarda hansı keyfiyyətləri vacib sayırsan" mövzuları ilə yanaşı, "Haram tikə yemək günahdır", "Başqasının malına göz dikmək əxlaqa ziddir", "Oğurluğun böyüyü, balacası olmaz", "İstəyirsən bal, çörək, al əlinə bel, kürək" kimi mövzuların da müzakirəsinə üstünlük verilir. Müşahidə etdiyimiz məktəblərdə şagirdlərin dəftərlərinin, kitablarının, qələmlərinin, geyim əşyalarının, hətta pullarının itməsi onları halallıq tərbiyəsi ilə bağlı dərsdənkənar tədbirlərə, xüsusilə disputlar keçirməyə istiqamətləndirir. Belə mövzular şagirdlərdə halallıq tərbiyəsi haqqında müəyyən təsəvvürlərin möhkəmləndirilməsinə kömək etmişdir.

Yarımfəsildə disputlarla yanaşı, əxlaqi söhbətlərin, kitab müzakirələrinin, məruzə və müzakirələrin, oxucu konfranslarının, yekun konfransların, tematik konfransların, gecələrin, görüşlərin, şagirdlərin halallıq tərbiyəsindəki yeri, rolu və əhəmiyyəti elmi-pedaqoji-metodik cəhətdən şərh edilərək əsaslandırılmışdır.

Yarımfəsildə dərsdənkənar tədbirlərin imkanlarını müəyyənləşdirmək məqsədi ilə eksperimental iş həyata keçirilmişdir. Eksperimental iş

halal adamlarla görüşlərdən birinə həsr edilmişdir. Bu xüsusda yarımfəsildə göstərilir ki, «Halal adamlarla görüş»ün şagirdlərin halallıq tərbiyəsinə olan təsir səviyyəsini müəyyənləşdirmək məqsədi ilə tədbiri keçirən $IX^a$ eksperimental sinif şagirdləri ilə $IX^b$ kontrol sinif şagirdlərinə paralel olaraq «Halal əmək baş ucaldır» mövzusunda inşa yazdırdıq. İnşa yazılar yoxlanıldıqdan sonra məlum oldu ki, $IX^a$ şagirdlərinin 90 faizi mövzunu tam əhatə etmiş, 20 faizi isə mövzu ilə bağlı fikrini yarımçıq şərh etmişdir. Mövzu ilə bağlı fikrini şərh etməyən şagird olmamışdır. Bunun əksinə olaraq, $IX^b$ sinfinin şagirdlərinin 90 faizi mövzu ilə bağlı fikrilərini yarımçıq şərh etmiş, 20 faizi isə şərh edə bilməyərək onlara verilən vərəqləri boş saxlamışdır. Mövzunu əhatəli şərh edən şagirdə təsadüf edilməmişdir. Alınan nəticələri müqayisəli şəkildə şərh etmək üçün eksperimentdən əvvəl həm eksperimental $IX^a$, həm də $IX^b$ siniflərində yazdırdığımız inşaların nəticələrini də cədvəllərdə əks etdirdik. Məlum oldu ki, həm eksperimental $IX^a$, həm kontrol $IX^b$ sinif şagirdlərinin "Halal əmək baş ucaldır" mövzusunda yazdıqları inşalarda mövzunu tam əhatə etməmişlər. Yəni şagirdlərin, təxminən, 90 faizi mövzunu tam və əhatəli şərh edə bilməmiş, yalnız 10 faizi mövzunu yarımçıq şərh edə bilmişdir. Hətta inşa mövzusunu şərh edə bilməyənlər də olmuşdur. Nəticələr aşağıdakı cədvəllərdə öz əksini tapmışdır.

**Dərsdənkənar tədbirlərdə eksperimentdən əvvəl aparılan işlərin nəticələri**

Cədvəl 2.3.

| S/N | Siniflər | Şagirdlərin sayı | Mövzunun şərh olunması səviyyəsi: Tam və əhatəli şərh etdi | Mövzunun şərh olunması səviyyəsi: Zəif və yarımçıq şərh etdi | Mövzunun şərh olunması səviyyəsi: Şərh edə bilmədi |
|---|---|---|---|---|---|
| 1 | $IX^a$ (E) | 25 | 0 | 5 | 20 |
| 2 | $IX^b$ (K) | 25 | 0 | 5 | 20 |

**Dərsdənkənar tədbirlərdə eksperimentdən sonra aparılan işlərin nəticələri**

Cədvəl 2.4.

| S/N | Siniflər | Şagirdlərin sayı | Mövzunun şərh olunması səviyyəsi | | |
|---|---|---|---|---|---|
| | | | Tam və əhatəli şərh etdi | Zəif və yarımçıq şərh etdi | Şərh edə bilmədi |
| 1 | $IX^a$ (E) | 25 | 20 | 5 | 0 |
| 2 | $IX^b$ (K) | 25 | 0 | 5 | 20 |

Cədvəllərdən göründüyü kimi, eksperimentdən əvvəl istər eksperimental $IX^a$ sinfində, istərsə də kontrol $IX^a$ sinfində tam və əhatəli cavab verən şagirdlərin sayı, təxminən, 9-10 faiz olmuşdur. Eksperimentdən sonra kontrol siniflərdə vəziyyət dəyişmədiyi halda, eksperimental siniflərdə inşanı yazanların 89-90 faizi mövzunu tam və əhatəli şəkildə şərh etmiş, kiçik bir qismi zəif və yarımçıq şərh etmiş, şərh etməyənlər isə olmamışdır.

Yarımfəsildə deyilənləri yekunlaşdıraraq belə qənaətə gəlirik ki, dərsdənkənar tədbirlərdə şagirdlərin halallıq tərbiyəsi ilə bağlı həyata keçirilən işləri məqsədyönlü, planlı və mütəşəkkil şəkildə həyata keçirdikdə şagirdlərdə halala məhəbbət və harama nifrət aşılamaqla onlarda müəyyən sağlam düşüncə tərzi və dünyagörüşü formalaşdırmaq mümkündür.

Dissertasiyadan alınan **nəticələr** aşağıdakı kimi olmuşdur:

1. Cəmiyyətdə hərtərəfli dünyagörüşə, yüksək əxlaqa, nümunəvi mənəvi sifətlərə malik olan yeni insan yetişdirmək halallıq tərbiyəsinin düzgün təşkilindən çox asılıdır. Ona görə də təlim-tərbiyə müəssisələrində uzunmüddətli və genişmiqyaslı müşahidələr apardıqdan, problemlə bağlı elmi, pedaqoji, metodik və bədii ədəbiyyat araşdırdıqdan, ümumtəhsil məktəblərində məktəbdənkənar tərbiyə müəssisələrindəki vəziyyəti öyrəndikdən sonra belə qənaətə gəldik ki, hazırda ümumtəhsil məktəblərinin istifadəsində olan proqram və dərsliklərdə şagirdlərin halallıq tərbiyəsinin inkişafı üçün qənaətbəxş dərəcədə material vardır , onlardan elmi-pedaqoji cəhətdən düzgün istifadə edilməlidir.

2. Problemlə bağlı tədqiqat aparılan məktəblərin yuxarı siniflərində kifayət qədər müsbət təcrübə vardır. Həmin iş təcrübəsi təqdirəlayiqdir və gələcəkdə həmin iş təcrübəsindən şagirdlərin halallıq tərbiyəsinin təşkili, inkişafı və formalaşdırılması üçün istifadə edilməsinə zəruri ehtiyac duyulur.

3. Təlim prosesində şifahi xalq yaradıcılığı nümunələrindəki halallıq tərbiyəsi elementlərindən bacarıqla istifadə edildikdə şagirdlərdə paklıq, təmizlik, düzlük, doğruçuluq, əliaçıqlıq, səxavətlilik, qayğıkeşlik, harama nifrət etmək və s. bu kimi əxlaqi-mənəvi normaları aşılamaq mümkündür.

4. Klassiklərin və ədiblərin, mütəfəkkirlərin əsərlərindəki halallıq tərbiyəsi nümunələrindən istifadə etməklə yuxarı sinif şagirdlərinin mənəvi paklığına nail olmaq olar.

5. Ədəbiyyat dərslərində islam dəyərlərinin halallıq normalarına istinad edildikdə şagirdlərə halallıq tərbiyəsinin təlqin olunması işi asanlaşır.

6. Tarix dərslərində tarixi şəxsiyyətlərin öz halal torpaqlarının azadlığı, bütövlüyü və istiqlaliyyəti uğrunda xalqı mübarizəyə səsləməsi, igidlik göstərərək qələbələr qazanması, lazım gəldikdə canından keçərək şəhid olması kimi konkret faktlardan istifadə olunması şagirdlərin halallıq tərbiyəsinin inkişafına öz müsbət təsirini göstərir.

7. Təlim prosesində halallıq tərbiyəsi ilə bağlı mövzuların seçilməsi və tətbiqi zamanı şagirdlərin maraqları, meyilləri, yaş, fərdi, cinsi və psixoloji xüsusiyyətləri nəzərə alındıqda haqqında danışılan məsələnin müvəffəqiyyətli həllinə nail olmaq mümkündür.

8. Halallıq tərbiyəsi nümunələrinin seçilməsi və onların təlim prosesində tətbiq olunması zamanı mövcud pedaqoji prinsip və tələblər gözlənildikdə, müvafiq imkanlardan, forma və yollardan səmərəli istifadə edildikdə, yüksək əxlaqi normalara, nümunəvi mənəvi saflığa malik olan halal övladlar, çılğın vətənpərvərlər, halal vətəndaşlar yetişdirmək mümkündür.

9. Dərsdənkənar tədbirlərin düzgün təşkili şagirdlərin halallıq tərbiyəsinin inkişafına kömək edir.

10. Dərsdənkənar tədbirlər zamanı ardıcıllığın, sistemliliyin, varisliyin,
xəlqiliyin, milli mentalitetin subardinasiyasının gözlənilməsi halallıq tərbiyəsinin imkanlarını genişləndirir.

11. Gecələr, görüşlər, disputlar, əxlaqi söhbətlər, müsamirələr, dərnəklər, mərasimlər, bayramlar və müxtəlif kütləvi tədbirlərdə halallıq tərbiyəsi nümunələri, elmi-bədii, ictimai-siyasi xarakterli materiallar şagirdlərin anlaq səviyyəsinə uyğun seçilib düzgün istifadə edildikdə onlar:

- nəfsi təmiz saxlamaq və öz istəklərinə hakim olmağı düzgün dərk edirlər;
- haqqı, ədaləti, düzlüyü, doğruçuluğu müdafiə etməyə hazır

olurlar;

- halal-haramın insan həyatındakı həlledici rolunu düzgün qavrayırlar;
- halal yaşamağın dini və ictimai məzmununu təlqin və təqdir edirlər;
- torpağa, Vətənə və insanlara halal münasibət bəsləməyə ciddi səy göstərirlər;
- insaflılığı, əliaçıqlılığı, şükürlülüyü, nəfsi toxluluğu, səxavətli olmağı öz həyat normasına çevirməyə çalışırlar;
- halallıq tərbiyəsi ilə bağlı hər cür nəsihətləri, məsləhətləri şəksiz qəbul edirlər;
- halal zəhmətlə dolananlara dərin hörmət bəsləyirlər;
- halal əmək adamları ilə həmişə təmasda olmaq arzusu ilə yaşayırlar;
- halallıqla bağlı gözəl ənənələr yaratmağı özünə şərəf bilirlər;
- bir sözlə, halallıq tərbiyəsinin bütün normalarını öz gələcək həyatı üçün stimul kimi qəbul edirlər.

12. Məktəb rəhbərlərinin, fənn müəllimlərinin, dərnək rəhbərlərinin, tərbiyəçilərin və pedaqoji prosesdə iştirak edən bütün mütəxəssislərin halallıq tərbiyəsi ilə bağlı həyata keçirdikləri işlər planlı və mütəşəkkil şəkildə olarsa, hər cür əxlaqi-mənəvi normalara yiyələnərək, yetişən gənc nəslin düzgün tərbiyəsinə nail olmaq mümkündür.

Tədqiqat zamanı əldə olunan nəticələr aşağıdakı **təklifləri** irəli sürməyə imkan verir:

1. Milli kurikulum əsasında hazırlanan tədris proqramları və dərsliklərdə sırf halallıq tərbiyəsini özündə əks etdirən mövzuların verilməsi çox faydalı olardı.
2. Məktəb rəhbərləri, dərnək rəhbərləri və digər mütəxəssislərin iş planlarında halallıq tərbiyəsinə dair konkret qrafaların ayrılması bu işin səmərəsini artırar.
3. Halal torpaqlarını göz bəbəyi kimi qoruyan, Vətənini, xalqını dərin məhəbbətlə sevən, qəhrəman övladlarımız olan Babək, Koroğlu, Qaçaq Nəbi, Tomris, "Dədə Qorqud" dastanının qəhrəmanları (Dədə Qorqud, Qazan xan, Bamsı Beyrək, Qaraca Çoban və s.), 20 Yanvar şəhidləri, Qarabağ uğrunda igidlik göstərmiş Milli Qəhrəmanlarımız, canını qurban vermis şəhidlərimiz haqqında bədii əsərlər (oçerklər, hekayələr, povestlər, romanlar, dram əsərləri, şeirlər, poemalar və s.), mahnılar, nəğmələrin yaradılması həmin nümunələrin əsas süjetinin halallıq

tərbiyəsini özündə təcəssüm etdirməsi və onların məktəblərimizə çatdırılması çox böyük səmərə verərdi.

4. Məktəblərimizdə "Halallıq tərbiyəsi lektoriyası"nın yaradılması və dəvət olunmuş mütəxəssislər tərəfindən bu lektoriyada həftədə və ya ayda bir dəfə "Halallıq tərbiyəsi" rubrikası altında müxtəlif məzmunlu əxlaqi söhbətiərin şagirdlərə çatdırılması problemlə bağlı irəliyə atılmış çox mühüm addım olardı.

5. Halallığın təbliğ olunması məqsədi ilə radio və televiziya verilişlərinin hazırlanması yaxşı olardı.

Tədqiqatın başlıca ideyaları, müddəaları və konkret nəticələri iddiaçının bu günə qədər nəşr etdirdiyi aşağıdakı adları qeyd olunan **əsərlərdə** öz əksini tapmışdır:

1. Halallıq ən mühüm əxlaqi normadır / "Ümumtəhsil məktəbinin aktual problemləri" mövzusunda Respublika Ali məktəblərarası elmi-praktik Konfransın tezisləri. Bakı, 1996, s. 67
2. "Kitabi-Dədə Qorqud" dastanlarında halallıq tərbiyəsi / "Kitabi-Dədə Qorqud" 1300 elmi-praktik konfransın materialları. 1999, s. 121-132
3. Kiçikyaşlı məktəblilərin halallıq tərbiyəsi // İbtidai məktəb və məktəbəqədər tərbiyə. 2000, № 3 s. 32-35
4. İslam dəyərlərində halallıq tərbiyəsi // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. 2000, № 4, s. 259-269
5. Halallıq tərbiyəsi. Kitab. Bakı: Nərgiz, 2000, 92 s.
6. Ədəbiyyatın tədrisi prosesində halallıq tərbiyəsinin aşılanması // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. 2001, № 1 s.73-80
7. Nizami yaradıcılığında halallıq tərbiyəsi // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. 2001, № 1, s. 81-84
8. Sinifdənxaric tədbirlər prosesində şagirdlərdə halallıq tərbiyəsinin aşılanması imkanları // Milli pedaqogika məktəbi jurnalı, 2010, № 1, s. 95-105
9. Məktəblilərin halallıq tərbiyəsi // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. 2015, № 3, s.179-182
10. Müəllim-şagird münasibətlərinin düzgün qurulmasında halallıq tərbiyəsinin rolu / "Müəllim-tələbə münasibətləri: pedaqoji və psixoloji aspektlər" mövzusunda respublika elmi konfransının materialları. Sumqayıt, 27-28 oktyabr 2016, s. 243
11. Məktəblilərin halallıq tərbiyəsi üzrə işdə dərsdənkənar tədbirlərin əhəmiyyəti // Azərbaycan respublikası Təhsil Problemləri İnstitutu, Elmi əsərlər, 2016, № 4, s. 43-49
12. Şagirdlərin halallıq tərbiyəsinin təşkilində inkişafetdirici təlim

texnologiyalarından istifadənin əhəmiyyəti / Respublika elmi-praktik Konfransının Materialları. Bakı, 23 fevral, 2016, s.156-157

13. Uşaqların halallıq tərbiyəsində ailənin rolu / Beynəlxalq Elmi konfransın materialları. Naxçıvan, 25 noyabr 2016, s. 102

14. Halallıq tərbiyəsi üzrə aparılan dərsdənkənar tərbiyə işlərinin modernləşdirilməsi yolları // Науковий вісник кафедры ЮНЕСКО Киівського національного лігвістичного университету, 2017, випуск 35, стр. 342-346

15. Şagirdlərin halallıq tərbiyəsi üzrə görülən işlərin pedaqoji əsasları // Pedaqogika jurnalı, 2017, №1, s.48-63

16. Dərsdənkənar tədbirlərdə halallıq tərbiyəsi üzrə görülən işlərin məzmunu // Pedaqogika jurnalı, 2017, №2, s.26-37

17. Halallıq tərbiyəsinin əsas meyarları // Pedaqogika jurnalı, 2017, №3, s. 95-107

18. Сущность, содержание и цель воспитания праведности в общеобразовательных школах Азербайджана // «Вестник московского городского педагогического университета», 2017

19. Məktəblilərin halallıq tərbiyəsinin formalaşdırılmasında disputların və əxlaqi söhbətlərin rolu // Naxçıvan Müəllimlər İnstitutunun xəbərləri cild13 № 3, 2017 səh. 39-43

**Шафига Таирова**

## Возможности и пути формирования воспитания праведности у учащихся

### РЕЗЮМЕ

Диссертационная работа состоит из введения, двух глав, восьми подглав, выводов и списка литературы. В первой главе, названной «Суть, содержание, цели и задачи работ по воспитанию праведности, проводимых в общеобразовательных школах», изложена суть, содержание, цели и задачи работ по воспитанию праведности, осуществляемых в общеобразовательных школах. В данной главе привлечена к анализу постановка вопроса в научно-педагогической литературе и школьной практике и показана необходимость исследования вопроса, о котором идет речь. В первой главе также определены педагогически-психологические основы работ по воспитанию праведности.

Во второй главе, названной «Возможности и пути работ, осуществляемых в учебно-воспитательном процессе по воспитанию праведности» систематизированы работы по воспитанию праведности, проводимые как в процессе обучения, так и на внеурочных мероприятиях. В данной главе изложены возможности, эффективные пути и пути модернизации работ по воспитанию праведности у учащихся старших классов на уроках литературы и истории. В диссертации посредством экспериментальной работы проверены возможности влияния на воспитание праведности у учащихся соответствующих тем, изучаемых на уроках литературы. Аналогичным образом на уроках истории также экспериментально изучены возможности влияния соответствующих тем на воспитание праведности у учащихся и получены результаты, доказывающие верность научных гипотез. В диссертации освещено место, роль и значение в воспитании праведности у учащихся наряду с диспутами на внеурочных мероприятиях, также и этических беседах, обсуждений книг, лекций, круглых столов, читательских конференций, заключительных конференций, тематических конференций, вечеров, встреч. В данной главе доказаны широкие возможности влияния на воспитание праведности у учащихся подготовленных претендентом обучающих материалов.

Диссертация завершается выводами, предложениями и списком литературы.

**Shafiga Tahirova**

**Possibilities and ways for formation of benevolence in pupils' upbringing**

**SUMMARY**

Dissertation consists of introduction, eight semi-chapters covering two chapters, results, offers and list of literature. The essence, content, purpose and duties of works conducted on education of benevolence in schools are explained in the first chapter called as "The essence, content, purpose and duties of works conducted on education of benevolence in general educational schools". Raising a question in scientific-pedagogical literature and school practice is analyzed in this chapter and it is indicated that investigation of the said question is necessary. Pedagogical and psychological grounds of the works conducted on the education of benevolence are determined in the first chapter, too.

The Possibilities and ways of works conducted on the education of benevolence are included in the system both in training process and out-of-class events in the second chapter called as "Possibilities and ways of works conducted on the education of benevolence in training and educational process". The Possibilities, efficient ways and modernization ways of works conducted on the education of benevolence of pupils of upper classes are explained especially in the lessons of literature and history in this chapter. The Possibilities of proper subjects affecting to the education of benevolence of pupils are checked by help of experimental work in the lesson of literature in dissertation. Exactly, impact Possibilities of proper subjects to the education of benevolence of pupils are examined in the lessons of history and results that proving the benevolence of scientific suppositions are obtained. Besides disputes within out-of-class events, also the place, role and importance of moralizing talks, book discussions, lectures, round tables, reader conferences, final conferences, thematic conferences, events, meetings in the education of benevolence of pupils is expressed in dissertation. Wide Possibilities for impact of training materials made by plaintiff to the education of benevolence of pupils are proved in this chapter.

Dissertation is summarized with conclusions, offers and list of literature.

МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ ПЕДАГОГИЧЕСКИЙ УНИВЕРСИТЕТ

*На правах рукописи*

ШАФИГА ШИРАЛЫ гызы ТАХИРОВА

# Возможности и пути формирования воспитания праведности у учащихся

**5804.01 – общая педагогика, история педагогики и образования**

# АВТОРЕФЕРАТ

**диссертации на соискание учёной степени доктора философии по педагогике**

**Баку – 2018**